Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 239 (1127) 25 dekabr - 26 dekabr 2015-ci il

# Dağlar qoynunda şəhər

## Gədəbəyin bu günü

*(Əvvəli ötən sayımızda)*

**Azərbaycan Respublikası prezidentinin regionların inkişafına dair dövlət proqramına uyğun olaraq ölkənin bütün əraziləri kimi Gədəbəydə də planlı və kompleks şəklində görülən işlərin təkcə sırasını sadalamaq özü-özlüyündə burada ölkə rəhbərinin tapşırığına, qəbul edilmiş qəraraları necə diqqət və saygı ilə yanaşıldığnı göstərir.**

Bu gün Gədəbəydə görülən işlərin sırasında ən vacibi və bəlkə də rayon üçün həyat əhəmiyyətli olan Qarıkənd-Misginli-Çalburun və Qızıltorpaq-Ağbaşlar yolunun tam təmin olunub istifadəyə verilməsidir. Azərbaycan Prezidentinin imzaladığı sərəncama əsasən Gədəbəy rayounun sosial-iqtisadi inkişafının sürətləndirilməsi ən vacib məsələ kimi önə çəkilmişdir. Bax elə həmin sərəncama uyğun olaraq da çəkilən yolun bütün standartlara cavab verməsi keyfiyyəti rayon və kənd sakinlərini, həmçinin bu yoldan istifadə edən hər kəsin üreiyncə olmuşdu. Adamlar illərlə davam edən narahatlıqdan birdəfəlik xilas oal bilmişlər. Elə yoldan söz düşmüşkən, onu da xatırladaq ki, artıq uzunluğu 56 km olan Gədəbəy-Novosratovka-Qaravəllilər yolunun inşası da yekunlaşmaq üzrədir.

Gədəbəydə olarkən fürsətdən istifaəd edib rayon icra hakimiyyətinin başçısı Ramiz Yediyarovun təşəbbüsü ilə böyük bir tarixi olan, ancaq rayon kimi formalaşmasının 85 yaşı qeyd edilən Gədəbəyin ziyalılarının, ictimaiyyət nümayəndələrinin tədbirinə də qatıldım. Xatırladım ki, çoxc yüksək səviyyədə təşkil olunmuş və "Müasir Gədəbəy: Gədəbəy ziyalılarının gözü ilə" adlı bu mötəbər tədbir çox yüksək səviyyədə hazırlanmışdı. Tədbirin qonaqları arasında Gədəbəyin ən adlı-sanlı ziyalıları, elm, mədəniyyət işçiləri , dövlət xadimləri, millət vəkilləri, söz, sənət adamları, bir sözlə, rayonun aydınları əksəriyyət təşkil edirdi. Təbii ki, bu görüşə rayon ictmaiyyətinin nümayəndələri də çox həvəslə qatılmışdılar.

Çıxış edən BDU-nun kafedra müdiri, fəlsəfə elmələri doktoru, professor, mili qəhrəman atası İzzət Rüstəmov, millət vəki lləri Sevinc Hüseynova, Rafiq Məmmədhəsənov, AMEA-nın müxbir üzvü Valeh Cəfərov, Avroasiya Universitetinin rektoru Nazim Hüseynov, polis general mayoru Rəhim Quliyev, hüquq elmləri doktoru Nazim Cəfərli, şair Dəmir Gədəbəyli, Musa Ələkbərli, Tibb Universitetinin dosenti Rəşid Mahmudov və digərləri son illərdə Gədəbəydə gerçəkləşmiş ürəkaçan işlərdən danışmaqla yanaşı, həm əd bu təşəbbüsün özünü yüksək qiymətləndirərək arzu və təkliflərini səsləndirmişdilər.

Rayonda olarkən öyrəndim ki, son iki ildə 200 şagird yerlik Novosaratovka, 180 şagird yerlik 1 saylı Qoşqabulaq, 360 şagird yerlik, 2 saylı Slavyanka, 480 şagird yerlik Arıqdam 180 şagird yerlik Samanlıq kənd tam orta mək təb binaları istifadəyə verilmişdir. Burada bir faktı da xatırladaq ki, Gədəbəydə Azərbaycan Prezidenti İlham Əliyevin yüksək dövlət vəzifəsinə seçildiyi gündən bu günə qədər 70-ə yaxın məktəb binası tikilmiş və təmir olunmuşdu. Gədəbəydə həmçinin 1000 nəfər tamaşaçı tutan Yaşıl teatr istifadəyə verilib. Onun səhnəsində Azərbaycanın tanınmış musiqiçiləri qonaq olub.

Bəli, bu gün Gədəbəydə tibb müəssisələrinin uşaq bağçalarının, eləcə də digər sosial obyektlərin yenidən qurulması, təmiri işləri də diqqət mərkəzində saxlanılır . Birmənalı olaraq Gədəbəydə hər kəs təhsilə, səhiyyəyə, rabitəyə, həmçinin su, qaz, elektrik enerjisi və digər zəruri həyat əhəmiyyətli məsələlərə rayon icar ahkimiyyətinin başçısı Ramiz Yediyarovun rəhbərliyi altında icra strukturunun mü vafiq komissiya və qurumları davamlı nəzarət edir, adiyyəti orqanlardan məsələyə cavabdeh olan şəxslərdən vaxtlıvaxtında görülmüş işlər barədə məlumatlar alır, əlavə göstərişlərlə birbaşa müdaxilələrlə həmin işlərin həm zaman baxımından icrasının sürətini artırmağa müvəffəq olurlar, həm də keyfiyyəti təmin olunur.

Əldə etdiyim, daha doğrusu, rayon icra hakimiyyətinin başçısının ziyalılarla görüşdə ki açıq söhbətində etdiyim qeydlərə nəzər salanda aydın olur ki, Gədəbəydə hər ikisi 84 paqonometr olan Novosaratovka kəndindəki Fındıqlı çayı üzərində və Gədəbəy şəhərinin girəcəyindəki Çolpan çayı üzərində böyük strateji əhəmiyyəti olan nəhəng körpülər tikilib isttifadəyə verilmişdir. Görüdən işlərin içərsində 110 kV elektrik xəttinin çəkilişinin davam etdirilməsi yaxın vaxtlarda başa çatdırılacaq və bu da rayonun elektrik təchizatında öz müsbət təsirin göstrəcəkdir.



Böyük saz- söz ənənəsi olan Gədəbəyin mədəni həyatı ilə mariqlanarkən onu da öyrəndim ki, burada elm, təhsil, səhiyyə ilə yanaşı, mədəniyyət sahəsində də planlı işlər görülür. Gədəbəyin tanınmış ziyalılarının, söz-sənət adamlarının yaradıcılıq gecələrinin təşkili, ölkə həyatının önəmli günlərinin və bayramlarının qeyd olunması dediklərimizi bir daha sübut edir. Bu da onu göstərir ki, dağlar qoynunda yerləşməsinə, paytaxtdan xeyli uzaqda olmasına baxmayaraq, Gədəbəyə heç də dünyanın indiki inkişafından, paytaxtın bugünkü tərəqqisindən geridə qalmır, əksinə dağlar qoyunda da təbii gözəlliyə insan əli yeni naxışlar, yeni bəzəklər vurmaqla onun səsini-sorağını daha uzaqlara apara bilir. Elə ona görə də ilbəil ziyaərtçiləri, turistləri artan Gədəbəy həm də bu bölgənin, bu dağların bir göz muncuğudur. Burada dinc zəhmətkeş sakinlərlə çiyin-çiyinə dayanıb sərhədlərimzi qoruyan oğullar da həm dağlara , həm də gədəbəylilərə güvənir. Necə deyərlər, ordu və xalq birlikdə Gədəbəyi qorumaqla yanaşı, dövlət proqramına uyğun olaraq Gədəbəyin inkişafı da, tərəqqisi də zaman-zaman təmin olunub.

**Mən Gədəbəydə oldubum qısa zaman əksiyində görüb ya ddaşıma köçürdüklərimin müəyyən bir hissəsini oxucularımıza çatdırarkən bir daha xatırladıram ki, həmin tədbirdə ölkə başçısına ünvanlanan müracitətdə xüsusi olaraq vurğulandı ki, onlar bütün tapşırıqları yerinə yetirməyə hazırdılar. Çünki sərəncam və tapşırıqlar gələcəyin Gədəbəyini Azərbaycana və dünyaya sevdirmək üçündür.**

*Əbülfət Mədətoğlu*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

